

# ÖMRÜNÜN MUZEY YAŞIDI

**Tariyel Abbaslıya muzeyin 40 illik yubileyi ilə bağlı gecikmiş təbrik məktubu**

Əzizim Tariyel Abbaslı, bu məktub əslində, bir vicdani səsdir. Yəni muzeyin 40 illiyi haqqında tədbirlərin keçirildiyi, mədəniyyət nazirinin şəxsən səni improvizə ilə desəm, fədakar bir muzey işçisi kimi qəbul etdiyi, təqdir etdiyi günlərdə yazılmalı idi. Ancaq neyləyəsən ki, bəzən biz ən doğru sözün yerinə, məkanına belə gecikirik.

Əzizim, Tariyel Abbaslı, qələmin var, sözün var, yaradıcılığın var, alimliyin var... Qarabağ müharibəsinin taleyini qələbəmizlə təmin edən şəhidlik tariximizlə bağlı yazılarınla bu gün yenə döyüşdəsən.

İndi yaddaşım məni tarixə çəkir.Çox demirəm, bəlkə, heç yarım əsr də ötəcək, ya ötməyəcək, Tariyel Abbaslı adını Qarabağ adı ilə yanaşı çəkəcək bir zaman gələcək. Təəssüf etdiyim orasıdır ki, o əlli ildən sonra Tariyel Abbaslını şəxsən tanıyan, onun haqqında bilən adamlar çox olacaq, ya az olacaq, - deyə bilmərəm, amma əgər biriki nəfər tapılıb şahidlik qismində danışa bilən olsa, bu adamın adını elə Qarabağ taleyi ilə qoşa xatırlayacaq.

Bir vaxt Cəbrayılda Tarix-diyarşünaslıq muzeyi vardı. O günlərdən söhbət gedir ki, onda Cəbrayıl mərmilər altında idi. Və həmin öldürücü mərmilərdən biri də Cəbrayıl muzeyinin üstünə düşmüş, dəmir darvazasını dəlik-deşik etmişdi. O vaxt ağlıma gətirmirdim ki, Cəbrayıl işğal ola bilər. Və 93-cü ilin 18 aprelində həmin muzeydəki əlamətdar təqdim günündə çıxış edib demişdim ki, bu dəlik-deşik olmuş muzeyin darvazasını tarixi eksponat kimi elə muzeyin özünun yaddaşı kimi qoruyub-saxlamaq lazımdır.

Amma nə deyəsən taleyin gərdişinə. Cəbrayıl işğal olundu. Bütöv abidələr diyarı vandalizmə - erməni vandalizminə məruz qaldı. Və daha bir amma... Tariyel Abbaslı dəfələrlə həyatını təhlükə qabağında qoyaraq muzeyi (əgər muzey sərvətlərindən ibarətdirsə) xilas elədi. Kəmərləri necə belinə bağlamağı, xalçaları necə köhnə əski-üsküyə büküb çıxarmağı, xırda-xuruşları nəzəri cəlb etməyən kisələrə yığmağı, sənədləri ayrı-ayrı adamlara etibar etməyə... bütün bunların hamısını düşünəndə deyirəm, vallah, elə bu Tariyel Abbaslı ən fədakar bir döyüşçüdür, yoxsa, nə qədər sərvətdən əlimiz çıxa bilərdi.

...Bəli, əzizim Tariyel Abbaslı, bir neçə cümlə üçüncü şəxsin dilindən səslənsə də, elə bilirəm səninlə üzbəüz danışıram. Sən ömrünün 40 ili ilə qürur duyursan. Çünki bu 40 ili həyatının mənası hesab edirsən. Muzeyin Cocuq Mərcanlıdakı filialını... İkinci Qarabağ savaşının həyəcanları ilə birgə yaşadın. Mərmilər altında olan muzeyi - muzeyin Azərbaycan tarixinin daşıyıcısı olan hər bir əşyanı canlı övladın kimi görürdün.

Əvvəllər belə deyirdik: sənin kimi adamlar canlı tarixdir, canlı muzeydir. İndi bilmirəm, bundan sonra necə deyiləcək. Ancaq çox arzu edərdim, qoruyub saxladığın, şəhidlikdən xilas etdiyin muzeyi Cəbrayılda öz əllərinlə, mənəvi rahatlığınla etibarlı kimsələrə təqdim edəsən.

Ömrünün muzey yaşıdı Tariyel Abbaslı, bu da sənin bir adındır; Adınla yaşayasan!

*Əli Rza XƏLƏFLİ,*
*19.04.2021*

Kredo 2021.- 21 aprel.- S.1.